# Səhiyyə işçilərinin peşə bayramı qeyd olunub

Rayon mərkəzi xəstəxanasında səhiyyə işçiləri günü münasibətilə tədbir keçirilmişdir.



Tədbiri giriş sözü ilə açan mərkəzi xəstəxananın baş həkimi Sabir Bayramov ilk öncə icra hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin peşə bayramları münasibətilə rayonun səhiyyə işçilərinə ünvanladığı təbrik məktubunu oxumuşdur. O bildirmişdir ki, müstəqil Azərbaycan Respublikasının səhiyyəsi bu il yaranmasının 100- illiyini qeyd etdiyimiz Azərbaycan Xalq Cümhuriyyəti ilə həmyaşıddır. 28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan cəmi 20 gün sonra iyunun 17-də AXC Nazirlər Şurasının sərəncamı ilə Səhiyyə Nazirliyi təşkil olunmuşdur.

Hazırki müstəqil Azərbaycan Respublikasını Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi dəyərləndirən ulu öndər Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 4 iyun 2001-ci il tarixli Sərəncamı ilə 17 iyun Səhiyyə İşçiləri Günü kimi qeyd olunur.

Sabir Bayramov qeyd etmişdir ki, ulu öndər Heydər Əliyev hələ Sovet dövründə Azərbaycana rəhbərlik edərkən respublikada səhiyyənin inkişafı üçün çox mühüm işlər görmüşdür.

Vətənimiz müstəqillik əldə etdikdən sonra insanların sağlamlığının təminatı ulu öndərin qarşıya qoyduğu və həyata keçirməyə başladığı əsas vəzifələrdən idi.

Ulu öndərin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev dahi rəhbərin səhiyyə sahəsində başlatdığı möhtəşəm layihələri uğurla davam etdirmiş, nəticədə Azərbaycan bu sahədə güclü potensiala malik ölkəyə çevrilmişdir. Azərbaycan səhiyyəsi müasir inkişaf etmiş dünya səhiyyəsi standartlarına uyğun kadrlarla, hər cür tibbi avadanlıqlarla, yüksək keyfiyyətə malik maddi-texniki baza ilə təmin olunmuşdur.

Baş həkim rayonda səhiyyənin vəziyyətini daha da yaxşılaşdırmaq üçün görülmüş tədbirlərdən, gələcəkdə bu sahədə həyata keçiriləcək layihələrdən geniş bəhs etmişdir.

Tədbirin sonunda əhaliyə tibbi xidmətin göstərilməsində fərqlənən bir qrup səhiyyə işçisinə mərkəzi xəstəxana rəhbərliyinin fəxri fərmanları təqdim olunmuşdur.

**Qüdrət CƏMALƏDDİNOĞLU.**
**Səhrab Umuyev (foto).**
**«Qəbələ»**

# Soltannuxa məktəbində son zəng

Soltannuxa kənd tam orta məktəbində «Son zəng» tədbiri yüksək səviyyədə qeyd olunub. İyunun 14-də səhər tezdən məktəb həyətinin darvazaları geniş açılmış, qapılara qırmızı lentlər bağlanmışdı.

Məktəbin giriş qapısı önündəki tədbir üçün nəzərdə tutulmuş meydança şarlarla, al-əlvan lentlərlə bəzədilmişdi. Onbirincilər, onların valideynləri, aşağı siniflərin şagirdləri şən əhval-ruhiyyə ilə tədbirə toplaşmışdılar.

Tədbiri məktəbin direktoru Həqiqət Rzayeva açıq elan edib. Azərbaycan Respublikası Dövlət Himninin sədaları altında çiyinlərinə «Məzun» yazılmış mavi rəngdə lent bağlanan məzunlar buraya toplaşan izdihamın önündən keçiblər. Məktəbin direktoru, məzunları və onların valideynlərini məktəb rəhbərliyi adından salamlayıb, təbrik edib,gələcək həyatlarında onlara uğurlar arzulayıb.

Qeyd olunub ki, bu il məktəbi iki sinifdə 32 nəfər məzun bitirib. Ali və orta ixtisas məktəblərinə qəbul üçün ilk mərhələnin test imtahanlarında məzunların 10 nəfərinin kifayət qədər bal topladığı bildirilib.

Sonra məktəbin direktor müavinləri, Səhrab Babayev, Gültəkin Qafarova, müəllimlərdən Vahid Mustafayev, Ramiz Yolçuyev, onbirincilərin sinif rəhbərləri Hicran Babayeva, Cülxar Həbibova, çıxış edərək məzunları təbrik edib, onlara gələcək həyat yollarında xoş arzularını bildiriblər.

Valideynlərin adından məzun Fərid Rəsulovun nənəsi Elmira Mahmudzadə çıxış edərək məktəb rəhbərliyinə, bütün müəllimlərə şagirdlərin hərtərəfli yetişməsi üçün çəkdikləri böyük zəhmətlərinə, şərəfli əməklərinə görə minnətdarlığını bildirib.

Tədbir məzunların hazırladığı bədii proqramla başa çatıb.

**Pərviz RƏSULOV,**
**valideyn.**

# Qanvermə aksiyası keçirilib

Hemofiliya və talessimiyadan əziyyət çəkən xəstələri qanla təmin etmək məqsədilə rayonumuzda mütəmadi olaraq qanvermə aksiyaları keçirilir. Daha belə bir aksiya iyunun 22-də Bahadur Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankı ilə birlikdə Qəbələ Müalicə Diaqnostika Mərkəzində təşkil olunub. Qanvermə aksiyasında rayon sakinləri iştirak edib.



Mərkəzdə donorlar həkimlər tərəfindən müayinə olunduqdan sonra onlardan qan götürülüb. Müayinə olunan 371 könüllüdən 210 nəfər qan verib.

Aksiya iştirakçıları bu cür tədbirlərin keçirilməsini xeyirxah və savab iş olduğunu bildiriblər və belə aksiyalarda yaxından iştirak etməyi vətəndaşlıq borcu kimi qiymətləndiriblər.

Müalicə diaqnostika mərkəzinin baş həkimi Ceyhun Əhmədov müxbirimizlə müsahibəsində əhalini bu cür aksiyalarda fəal iştirak etməyə səsləyib.

**Rais RƏŞİDOV,**
**Səhrab Umuyev (foto).**
**“Qəbələ”**

# Qəbələ xarici jurnalistlərdə zəngin təəssürat yaradıb

Azərbaycanda səfərdə olan bir qrup xarici KİV nümayəndəsi Qəbələyə gəlib, rayonun qədim tarixi və turizm potensialı ilə tanış olub.

İordaniya, Birləşmiş Ərəb Əmirlikləri və Livandan olan jurnalistlər Qəbələnin qədim tarixi, mədəniyyəti, adət-ənənələri, sosial-iqtisadi və mədəni həyatında əldə edilən uğurlar, rayonun coğrafiyası, etnoqrafiyası barədə məlumatlandırılıb.

Qonaqlar rayonda yaradılan müasir turizm infrastrukturu, bölgənin füsunkar təbiəti ilə də tanış olublar.

Jurnalistlər Qəbələ ilə tanışlığın onlarda zəngin təəssürat yaratdığını söyləyiblər.

### “Qəbələ”–85

# “Qəbələ” qəzeti–Qəbələnin salnaməsi

*Bu il oktyabr ayının 15-də “Qəbələ” qəzetinin ilk nömrəsinin işıq üzü görməsinin 85-ci ildönümü tamam olur. 143 ildən çox zəngin tarixə malik olan Azərbaycan mətbuatı ailəsinin bir üzvü kimi “Qəbələ” qəzeti də yaşadıldığı bu illər ərzində həmişə dövlət və dövlətçiliyimizə, xalqımızın, millətimizin mənafeyinin qorunmasına sadiq qalmış və bu gün də öz ənənələrini davam etdirir. Sözün əsl mənasında demək olar ki, istər müasir televiziya kanalları, istər fəaliyyətdə olan bir çox mətbu nəşrlər kimi müstəqilliyimizin inkişafına, hüquqi dünyəvi, demokratik dövlətimizin inkişafına öz əməli töhfəsini verməkdədir. Bu bir həqiqətdir ki, qəzet müstəqiliyimizin ötən bu qısa illərində, günün tələbləri ilə ayaqlaşa bilmiş, ölkənin sürətli siyasi, iqtisadi, mədəni inkişafını müntəzəm işıqlandırmaqda həmişə öndə olmuş, bu yolda daim püxtələşmiş günün aktual mövzuları ilə zənginləşmiş və hazırda da fəaliyyətini bu istiqamətdə davam etdirməkdədir.*

Xüsusi olaraq qeyd etmək lazımdır ki, hələ vaxtilə dünya şöhrətli siyasi xadim, ulu öndər Heydər Əliyevin və bu gün onun siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin mətbuat orqanlarına, o cümlədən bölgə qəzetlərinə dövlət dəstəkləri fonunda həyata keçirilən tədbirlər media orqanlarımız, jurnalistlər tərəfindən heç vaxt unudulmur. Hər il mətbuatımızın ildönümü ilə əlaqədar ən qabaqcıl mətbuat işçilərinin əməyinə verilən yüksək qiymətlər onlara göstərilən qayğılar bunu bir daha təsdiq edir.

“Qəbələ” qəzeti də, onun əməkdaşları da keçdikləri yollarda dövlət qayğısından kənarda qalmamışlar. İstər sovetlər dönəmində, istərsə də müstəqillik illərində,



həm qəzet, həm də onun əməkdaşları dövlət tərəfindən mükafatlandırılmış, Fəxri fərmanlara, tərifnamələrə və digər mükafatlara layiq görülmüşlər. Çünki yuxarıda qeyd etdiyim kimi qəzetin fəaliyyət dairəsi həmişə geniş olmuş, oxucu istədiyi informasiya və məlumatları, maraq doğuran digər yazıları onun səhifələrindən tapa bilmişdir. Bu orqan öz çərçivəsində həyatın bütün məsələlərinə vaxtında, qısa da olsa toxuna bilmiş, oxuculara informasiyalar daha çevik çatdırmışdır. Hətta bir dəfə oxuculardan biri mənə demişdir ki, mən hər il “Qəbələ” qəzetinə abunə olmasam onun hər nömrəsini oxumasam, həyatımda nəysə itirmiş hesab edərəm.

Məncə “Qəbələ”-nin oxucuları arasında bu cür düşünənlər çoxdur.

Çox yaxşı haldır ki, qəzet öz ənənələrini bu gün də qoruyub saxlamaqla ətrafında kifayət qədər oxucu toplaya bilmişdir.

Hər bir oxucuya yaxşı məlumdur ki, Qəbələnin çox qədim və zəngin tarixi vardır. Qəbələ eramızdan əvvəl IV-I əsrdən bizim eranın V əsrlərinədək Qafqaz Albaniyasının paytaxt şəhəri olmuşdur. Qəzet fəaliyyət göstərdiyi illərdə bu barədə əldə olunan tarixi məlumatları, yenilikləri, ümumiyyətlə maddi və mənəvi dünyamızda olan məlumatları mütəmadi olaraq öz oxucusuna çatdırmışdır. Elə qəzetə oxucu sevgisi də buradan başlamışdır. Bu kenteksdə dünya ölkələrində baş verən ən aktual tarixi hadisələr, yeniliklər də unudulmamışdır.

Qeyd etmək yerinə düşər ki, müstəqilliyimiz illərində, daha doğrusu son 15-20 il ərzində Qəbələnin iqtisadi, siyasi, mədəni, sosial həyatında baş verən yeniliklər qazanılan uğurlar hər bir qəbələlini sevindirir. Şəhər və qəsəbələrimizin, kəndlərimizin hüdudları genişlənir, əhalinin həyat səviyyəsi gündən-günə yüksəlir.

Bu gün Qəbələdə fəaliyyət göstərən regional mərkəzlər, beş, dörd və üçulduz otellər, beynəlxalq tədbirlərin keçirilməsi üçün saraylar və hər cür şəraiti, müasir qurğuları olan idman obyektləri tikilmiş, istirahət parkları salınmışdır.

**(Ardı 6-cı səhifədə).**